## *AZƏRBAYCAN TARİXİNDƏ QENDER ASPEKTİ*

| | |
|---|---|
| Müəllif-tərtibatçı: | Məmmədova F.D. – Qərb Universitetinin humanitar fənlər kafedrasının müdiri, tarix elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü |
| Elmi redaktor: | Abbasov A. – Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə elmləri doktoru, professor |
| Rəyçilər: | Abdullayeva M., fəlsəfə elmləri namizədi<br>Bəhramov C., tarix elmlər namizədi |

*Məsul redaktor:* M. M. Əliyeva, tarix elmləri namizədi

### GİRİŞ

Qərbdə və bütün dünyada qadın hərəkatının tarixi, onun əldə etdiyi nailiyyətlər Azərbaycanda feminizmin inkişaf imkanları və perspektivinin aşkar olunması, öyrənilməsini, düzgün strategiya seçmək üçün onun inkişaf mərhələlərinin, əsas istiqamətlərinin işıqlandırılmasını vacib edir. Lakin burada yerli milli ənənələrin, xüsusiyyətlərin, mentallığın nəzərə alınması olduqca əhəmiyyətlidir. Bunun üçün də tarixə nəzər salmaq – Azərbaycanın tarixində qadının rolu və yerini, onun tarixi təcrübəsini aşkar etmək gərəkdir.

Məlum olduğu kimi, tarixdə toplanmış yalnız kişi təcrübəsi «ümumi tarix»lə eyniləşdirilirdi. Lakin qadın tarixi də eyni dərəcədə «ümumi tarix» hesab olunmalıdır.

Beləliklə, tarixi özü və nəticələri qender problemləri prizmasından yenidən, yəni interqender təsir tarixi olaraq nəzərdən keçirməyin vacibliyi meydana çıxır. Tarixdə qadının məsələsinin öyrənilməsi məqsədi – hər iki cinsi əhatə edən bütöv tarix haqqında təsəvvür formalaşdırmaqdır.

Qadının rolu, yeri haqqında qədim dövrlərdə, ənənəvi (kapitalizmə qədər) və müasir cəmiyyətdə mövcud olan ayrı-ayrı mənbələrin (narrativ, teoloji, sənədli, etnoqrafik və s.) müqayisəli şəkildə öyrənilməsi, onlardan istifadə və bu barədəki təsəvvürlərin təshihinin vacibliyi tələbələrə Azərbaycan tarixində qender aspeklərini üzə çıxarmaqda kömək edəcəkdir.

36 saat üçün nəzərdə tutulan (onlardan 23 saat mühazirələrə, 13 saat isə seminar məşğələlərinə ayrılmışdır) proqram tematik planı, kursun mövzularını və tövsiyə olunan ədəbiyyatı əhatə edir.

### <u>TEMATİK PLAN</u>

| Mövzular | | Saatların miqdarı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Mühazirələr | Seminarlar |
| 1. | Azərbaycan qadını qədimdə və antik dövrdə | 5 | 3 | 2 |
| 2. | Azərbaycan qadını ilkin orta əsr dövründə (III-VIII-ci əsr.) | 6 | 4 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 3. | Azərbaycan qadını inkişaf etmiş orta əsrlər dövründə (IX-XVIII-ci əsr.) | 8 | 6 | 2 |
| 4. | Azərbaycan qadını maarifçilik və XIX-XX-ci əsrlər inqilab dövrlərində | 9 | 6 | 3 |
| 5. | Azərbaycan qadını sovet dövründə | 4 | 2 | 2 |
| 6. | Qadın postsovet Azərbaycanında | 4 | 2 | 2 |
| CƏMİ | | 36 | 23 | 13 |

**MÖVZU № 1. Azərbaycan qadını qədimdə və antik dövrdə**

Coğrafi mühit, maddi istehsalatın xüsusiyyətləri. Kişi və qadınların qarşılıqlı münasibətləri. Nəslin, ailənin əhəmiyyəti, onların təkrar olunmasının vacibliyi, cəmiyyətdə qadın statusunun müəyyən edilməsi.

Büt ilahələrinin obraz və funksiyaları. Antik mifologiyada qadın obrazları. Məhsuldarlıq və analıq ayinləri. Anaxit ayini. Qadınların müharibədə iştirakı. Amazonkalar haqqında mif və reallıqlar. Hökmdar qadınlar: Tomiris haqqında mif.

**MÖVZU № 2. Azərbaycan qadını ilkin orta əsr dövründə (III-VIII-ci əsr.)**

Qadın ilkin xristian ənənələrində. Bibliyada qadın. Albaniyada xristianlığın meydana gəlməsi. İlkin xristian xətib-şəhidləri: Gürcüstanda Qayane, Albaniyada Taquhi. Albaniyanın ilk hüquqi sənədində kəbin-ailə münasibətləri. Dini-siyasi həyatda qadının rolu – Albaniyanı yeni ideologiyaya-dinə, xalkidonitliyə çevirmək cəhdi; P.Xosrovun həyat yoldaşı Şirinin din siyasəti.

Qadın islam ənənələrində. Avropa oriyentalistlərinin elmdə mövcud olan – islam aləmində qadının alçaldılmış vəziyyəti haqqındakı fikrinin əsassızlığı. Əl-Quran: qadının sosial-hüquqi statusu; kəbin müqaviləsinin bağlanması və boşanma şərtləri, qadına mirasın qalması: rəvayətdə Məhəmməd peyğəmbərə aid edilən sözlər: «Elm öyrənmək hər bir müsəlman – qadın və kişi üçün vacibdir».

**MÖVZU № 3. Azərbaycan qadını inkişaf etmiş orta əsrlər dövründə (IX-XVIII-ci əsr.)**

XII-XIII-cü əsrlər – Azərbaycanda müsəlman (Məhsəti Gəncəvi poeziyasında azad məhəbbət lirikası) və alban xristian (Qarabağda yenidən bərpa olunmuş hökmdarlar nəslindən, Həsən Cəlalların nəslindən olan qadınların məbədlər tikməsi) İntibahı.

VIII-XIII-cü əsrlərdə köçəri türk qəbilələrində qadının rolu və yeri. «Dədə Qorqud» dastanında qadının əhəmiyyəti – qadın-ana ayini; qadınların düşmənlə döyüşlərdə iştirak etməsi.

Müsəlman qadınlarının şəriətə görə, alban qadınlarının Muxtar Qoşanın «Qanunnamə»sinə görə mülki və sosial hüquqları. Cəmiyyətin mədəni və siyasi həyatında qadınların rolu: Türkan xatın – türklərin tarixində ən mühüm rol oynamış qadınlardan biri kimi; Sara xatın -, Azərbaycanın tabe olduğu Səlcuq sultanı Məlik şahın arvadı, qadın-hökmdar, qadın-diplomat kimi; Tutu Bikə – Fətəli xanın arvadı,

Dərbənd şəhər-qalasının müdafiəsini təşkil etmiş Bakı şəhərinin hökmdarı kimi; Natəvan – böyük şairə kimi.

**MÖVZU № 4. Azərbaycan qadını maarifçilik və XIX-XX-ci əsrlər inqilab dövrlərində**

Maarifçiliyin, publisistikanın yaranması və inkişafının sosial-siyasi, iqtisadi, intellektual əsasları; etnik özünüdərkin təşəkkül tapması, onun aşkarlıq mərhələləri. Ümumtəhsil məktəblərinin, Qori seminariyasının, Peterburq, Qazan, Avropa universitetlərinin Azərbaycanlı mütəxəssislərin formalaşmasındakı rolu. Maarifçi mütəfəkkir, dramaturq, ədəbiyyatçıların - Q.Mahmudbəyovun, S.M.Qəniyevin, H. Məlikovun (Zərdabi), N.Nərimanovun, F.Köçərlinin, N.Vəzirovun, M.F.Axundovun, C.Məmmədquluzadənin rolu. Qadın gimnaziyaları, məktəblərinin yaradılmasında neft sənayeçilərinin, burjuaziyanın xidmətləri. Ailədə yeni münasibətlər. Feminizmin ilk təzahürləri. Qadın maarifçilər, qadın-xeyriyyəçilər – görkəmli qadınlar dövrü: Hənifə xanım Məlikova, Həmidə xanım Cavanşir, Ağayeva bacıları və başqaları. Sosial qadın təşəbbüskarlıq statusunun artması. İctimai-siyasi hərəkatlarda iştirak. Siyasətdə və iqtisadi həyatda qadının statusunun artması. Azərbaycan Demokratik Respublikası və qadının sosial-hüquqi statusu.

**MÖVZU № 5. Azərbaycan qadını sovet dövründə**

İctimai həyatın bütün sahələrində qadının fəal rolu: qadın elmdə – Yaxın və Orta Şərqdə ən qabaqcıl elmi yaradıcılıq potensialın cəmlənməsi; qadınlar iqtisadiyyatda; ötən dövrün görkəmli qadınları; 1937-ci il – repressiya qurbanları. Azərbaycan qadını Böyük Vətən müharibəsi dövründə.

Sovet qadın idealı: qadın zəhmətkeş kimi, qadın ana kimi. Qadın kənd təsərrüfatında – qadınların pambıq, üzüm və düyü plantasiyalarında istismar olunması.

Azərbaycan qadının dövlətidarəçiliyində fəal iştirakı. Qadınların idarəetmədə iştirakına dair sovet dövlətinin apardığı siyasət: rəqəmlər və faktlar.

**MÖVZU № 6. Qadın postsovet Azərbaycanında**

Qadınların demokratik hərəkatda, Azərbaycan Xalq Cəbhəsində, Qarabağ uğrunda, süveren respublika uğrunda hərəkatda fəal iştirakı. Qadınların əmək uğrunda, iqtisadiyyatda, siyasətdə yer tutmaq uğrunda mübarizəsi, ailədə yeni münasibətlər.

***ƏDƏBİYYAT***


1. Коран. (пер. смыслов и комментарий В. Пороховой).
2. Тегеран, 1997
3. Каланкатуйский М. История албан. Спб, 1861
4. Бахрие Учок. Женщины – правительницы в мусульманских государствах (пер. с турец. З.М. Буниятова) – М., 1982
5. Библия Доре: книги священного писания Ветхого и Нового завета. – Люксембург, 1997
6. Кун Н.А. Легенды и мифы Древней Греции. - М., 1992
7. Болотов В.В. Из истории церкви сиро-персидской. Спб, 1901
8. Геродот. История. Перевод Г.А.Стратановского. - Л., 1972

9. Донини А. У истоков христианства. - М., 1989
10. Законы Ману, Хаммурапи, Архашастра, Камасутра.
11. Хрестоматия по истории Древнего Востока. Гл. 1-2
12. М., 1980
13. Эфендиев О. А. Азербайджанское государство сефевидов в XVI в. – Б., 1981
14. Мамедова Ф. Политическая история и историческая
15. География кавказской Албании, - Б., 1986
16. Мифология и верования народов Восточной и Южной Азии. М., 1973
17. Мусин И.Ф. Кумранская община. - М., 1983
18. Страбон. География. Перевод Г.А.Стратановского. -М., 1964
19. Фрезер Д.Д. Золотая ветвь. - М., 1983
20. Ямпольский З.И. Древняя Албания III-I в. до н.э. – Б., 1962